# Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığında idrak anlayışı və onun tərkib hissələrinin rolu

**Nigar Ramiz qızı İsmayılova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**E-mail:** niay.83@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. S.A. Əliyeva,
p.ü.f.d. S.A. Abdullayeva

**Açar sözlər:** vətən, tərbiyə, inkişaf, vətəndaşlıq, vətənpərvərlik
**Ключевые слова:** родина, образование, развитие, гражданственность, патриотизм
**Key words:** motherland, education, development, citizenship, patriotism

İdrak anlayışı hansı dövrdə olmağımızdan asılı olmayaraq daima mühüm olması ilə seçilmişdir. Qeyd olunan məsələ təhsilin hər bir pilləsi üçün də xarakterikdir. “Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişafı onlarda öyrənməyə həvəs və maraq formalaşdırır. Məktəbəqədər yaşlı uşağın idrak fəaliyyətində sistemlilik, ardıcıllıq, əlaqəlilik, həyat şəraitinə uyğunluq, mühüm şərt hesab olunur. Məktəbəqədər yaş dövründə uşaq idrakın inkişafı baxımından, ilk növbədə, sadə danışıq dilinə və rabitəli nitqə yiyələnir, ətrafdakılarla ünsiyyət qurur, öz fikirlərini təqdim etməyi öyrənir. Uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə edir, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək qabiliyyəti nümayiş etdirir. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir” (2).

Bir məqamı da qeyd edim ki, riyazi tapşırıqların həlli zamanı uşaqlarda induksiya və deduksiya, ümumiləşdirmə və konkretləşdirmə, analiz və sintez, təsnifetmə və sistemləşdirmə, mücərrədləşdirmə və analogiya kimi mühakimə qabiliyyətləri inkişaf edir.

**İdraki inkişafın məqsədi** uşağın idraki maraqlarının, tələbat və bacarıqlarının, emosional-hissi təcrübə əsasında müstəqil axtarıcılıq fəaliyyətinin formalaşdırılmasıdır. Eyni zamanda sensor, nitq inkişafı, idraki qabiliyyətlərin (müqayisə etməyi, fərqləndirməyi, ümumiləşdirməyi bacarmaq), ətraf aləm haqqında ilkin təsəvvürlərin və anlayışların, əşyavi fəaliyyətin də inkişafı baş verir. Həm də dərketmə tələblərinin formalaşdırılmasının (informasiya almaqda tələb, təlim zamanı fəallıq, ətraf aləmin dərk edilməsində müstəqillik) bünövrəsi də bu dövrdə qoyulur.

Məktəbəqədər yaş dövründə uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, onlardan necə istifadə etmək lazım olduğunu düzgün ifadə etmək, bu istiqamətdə məntiqi mühakimələr yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək kimi qabiliyyətlər nümayiş etdirirlər. Uşağın yerinə yetirdiyi idraki tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir.

İdrakın inkişafı prosesində motivasiya anlayışı da vacibliyi ilə diqqət çəkir. Belə ki, bu anlayış müxtəlif mənbələrdə eyni formada təqdim olunmur. Lakin həmin fikirləri birləşdirən bir məqam var. Bu, motivasiyanın insanın fəallığı, problelmli vəziyyət yaratması üçün göstərdiyi səydən ibarət olmasıdır.

**Motivasiya** insanı fəaliyyətə vadar edən, bu fəaliyyətdə məqsədə çatmağa yönəlmiş daxili və xarici hərəkətverici qüvvələrin birləşməsidir. Məktəbəqədər yaşlı uşaqlarda motivasiya probleminə həsr olunmuş tədqiqatlarda motivasiyanın bir neçə mexanizminin olduğu qeyd edilir. Bunlar məqsədə çatmaq üçün uşağın motivasiyasını artırmağın yollarıdır:

- Uşağın ətraf mühitin tədqiqinə təşviq edilməsi;
- Uşağa ilkin tədqiqat bacarıqları aşılamaq. Məsələn, obyektlərin müəyyənləşdirilməsi, müşahidə olunması, çeşidlənməsi, müqayisə edilməsi və s.
- Mümkün olduğu qədər, səhvlər, mənfi nəticələr üçün cəza və tənqidlərdən çəkinilməsi;
- Nitq və simvolik ünsiyyətin stimullaşdırması və s.

Bütün bu mexanizmlərin tətbiqi uşaqlara erkən yaşlardan uğur qazanmaq üçün motivasiya qazanmağa kömək edəcəkdir.

Məktəbəqədər təhsilin müxtəlif motivləri arasında uşaqlar üçün ən mühüm motivasiyalardan biri idrakı motivlərdir.

**İdrak motivasiyası** anlayışı daxilən digər, lakin onunla əlaqəli anlayışlarla bağlıdır. Onların arasında aşağıdakıları qeyd etmək olar:

— idrak probleminin həllinə emosional formada daxil olmaq;
— idrak fəaliyyəti − yeni biliyə yönəlmiş praktik fəaliyyət;
— idrak fəaliyyətinə hazırlıq və təşəbbüskarlıq;
— biliyə maraq, yeni bir şey öyrənmək arzusu.

**İdrak motivasiyasının ifadə göstəriciləri də çoxdur**. Bu sıraya uşağın fəaliyyətə emosional cəlb edilməsi; fəaliyyətin məqsədyönlülüyü, tamlığı; uşağın təşəbbüskarlığının dərəcəsi kimi amillər daxildir. İdrak motivasiyasının əsas vəzifəsi uşağa əqli səy sahəsini müstəqil seçmək, qarşısına məqsəd qoymaq və onu həyata keçirmək yollarını tapmaq imkanı verməkdir. Məktəbəqədər təhsil müəssisəsində əqli fəaliyyət daha müstəqil xarakter daşıyır. Bu yaş dövründə uşaqlar vəzifələri kənardan yardım olmadan həll etməyə çalışırlar.

Uşağa zehni işin sevincini anlatmaq, ona maraq oyatmaq üçün məktəbəqədər yaşlı uşaqlarda idrak fəaliyyətinin inkişafında səmərəli üsullardan istifadə etmək lazımdır. Məsələn:

- uşaqlara təcrübə aparmaq üçün şərait yaratmaq;
- böyüklər tərəfindən uşaqlar üçün həlli əlçatan olan problemli vəziyyətlərin yaradılması, yaradıcı vəzifələrin təyin edilməsi;
- idrak fəaliyyətinin inkişafında tapmacalardan istifadə;
- uşağın idrak fəaliyyətinin inkişafında oyunlardan geniş istifadə olunması;
- inteqrativ təlim metodlarından istifadə və s.

Böyüklərin idrak prosesində iştirakı uşağın kömək istəməsi, səhvlərini düzəltməsi üçün imkan yaradır. Bir-birini təqlid edən və rəqabət aparan uşaqlar idrak fəaliyyəti ilə məşğul olmaqdan məmnunluq hiss edirlər.

Uşaqlarda bilik motivasiyasının inkişaf etdirilməsində bir sıra əsas prinsiplərin gözlənilməsi lazımdır. Bunlar əsasən aşağıdakılardır:

- böyüklərin idrak fəaliyyətində emosional iştirakı;
- uşağın maraq dairəsini genişləndirmək (fəaliyyətdə marağa səbəb ola biləcək orijinal oyuncaq və materiallardan istifadə);
- təşəbbüsün böyüklərdən uşağa ötürülməsi (yalnız uşağı maraqlandırmaq deyil, həm də ona öz qarşısına məqsəd qoymağı öyrətmək);
- uşaqların fəaliyyətini dəstəkləmək, onlarda tədqiqatçılığa maraq yaratmaq.

Bu prosesin səmərəli olması o zaman yüksək olur ki, bu işlərin aparılmasında tərbiyəçi-müəllim yalnız təşəbbüsü uşağa vermir, həm də onu dəstəkləməyə, yəni uşaqların ideyalarını

həyata keçirməyə, mümkün səhvləri tapmağa və yaranan çətinliklərin öhdəsindən gəlməyə kömək edir. Əgər uşaqlar özləri seçdikləri məşğuliyyətləri dayandırırlarsa, onda tərbiyəçi-müəllim onlar tərəfindən irəli sürülmüş təkliflərin birlikdə müzakirə olunmasını təklif edir.

Təbiət, cəmiyyət və təfəkkür hadisələrini adamın dərk etməsinə və fəaliyyət göstərməsinə istiqamət verən vahid baxışlara **dünyagörüşü** deyilir. Dünyagörüşü tez bir zamanda formalaşan məsələ deyil. Onun üçün də zaman ehtiyac var. Bundan ötrü çox oxumaq, çox öyrənmək, çox düşünmək, çox sınaqdan keçirmək lazım gəlir. Tam formalaşmış vahid dünyagörüşü az adamda müşahidə olunur. Bunun səbəbini dünyagörüşünün mürəkkəbliyində, uzun müddətdə formalaşmasında, vəziyyətlə, şəraitlə əlaqədar dəyişə bilməsində, məfhumun mahiyyətinin çoxları üçün aydın olmamasında axtarmaq lazımdır. Odur ki, belə də demək olar: **Dünyagörüşü** - dünyaya, yəni varlığa, həyata, təbiətə, cəmiyyətə, təfəkkür hadisələrinə olan elmi, fəlsəfi, əxlaqi, estetik, siyasi, hüquqi, dini bilik, ideya və əqidələrin ümumiləşdirilmiş sistemidir. Dünyagörüşünün mənşəyi cəmiyyətin maddi həyat şəraitindədir, varlıqdadır.

"Əqli inkişafda (bəzi mənbələrdə zehni inkişaf da adlanır) yalnız müəllim və tərbiyəçilər deyil, uşağı əhatə edən bütün ətraf iştirak edir. Əqli inkişaf prosesində insan onu əhatə edən mühitlə təmasda olur və müxtəlif adamlarla ünsiyyətə girir, onun əqli və təfəkkür qabiliyyəti formalaşır. Təcrübə göstərir ki, əqli inkişaf məntiqi düşüncənin nəticəsidir; bu da təfəkkürdəki inkişafın göstəricisidir. Təfəkkürün inkişafı isə ağlın inkişafı deməkdir. Təsadüfi deyil ki, alman pedaqoqu Adolf Disterveq yazırdı ki, uşaqlara fikirləri deyil, fikirləşməyi öyrətmək lazımdır. Bilikləri deyil, bilikləri tapıb öyrənməyi öyrətmək lazımdır. Ağlın inkişafı müstəqil düşüncə tərzilə bərabər, mühitdən, ağıllı olmağını istədiyimiz insana ağıllı təsirdən də asılıdır" (1, s. 182).

Əqli tərbiyə böyüməkdə olan nəslin təfəkkürünü və ağlını inkişaf etdirmək üçün sistemli, məqsədyönlü və planlı şəkildə həyata keçirilən pedaqoji təsirdir. O, idrak prosesini inkişaf etdirir. İnsanın kamilləşməsində, dünyagörüşünün formalaşmasında, mənəvi yetkinliyində çox böyük rol oynayır; təfəkkür hadisələrilə bağlı məsələləri özündə birləşdirir. Bu da fərdi düşüncə və şüurlarda üzə çıxır, insanların fəallığını təmin edir.

Bəzi pedaqoji mənbələrdə əqli tərbiyə anlayışı ağıl tərbiyəsi, zehni tərbiyə kimi də işlədilir. Yunan filosofu Aristotel qeyd edirdi ki, insanın digər canlılardan başlıca üstünlüyü onun ağlıdır.

**Əqli tərbiyə** - məktəbəqədər yaşda uşağa hərtərəfli inkişaf üçün zəruri olan biliyin verilməsi və düşünmə fəaliyyətinin formalaşmasına müntəzəm təsirin olmasıdır.

Uşaqların əqli tərbiyəsinə erkən yaşdan başlamaq lazımdır. Erkən yaşdan onların ətraf aləmlə əlaqəsini zənginləşdirmək, bələdləşməni inkişaf etdirmək, onlarda diqqət, qavrayış, hafizə, dərketmə və nitqi formalaşdırmaq lazımdır. Erkən yaşdan uşaqlarda müxtəlif növ fəaliyyətləri - məişət, əşya, oyun və ünsiyyəti formalaşdırma əhəmiyyətli vəzifələrdən biridir. Bütün bu məsələləri həyata keçirmək üçün tərbiyəçidən böyük pedaqoji səy tələb olunur.

Əqli cəhətdən tərbiyə işi düzgün qurulmazsa, sonralar uşaqların əqli fəaliyyətinin gələcək inkişafına müəyyən dərəcədə mənfi təsir göstərə bilər. Ona görə də uşaqlarla işləyən hər bir tərbiyəçi-müəllim işlədiyi qrupda tərbiyə işini düzgün qurmalı, tərbiyənin qarşısında duran vəzifələri dərk etməli və həyata keçirməyə çalışmalıdır. Belə ki, tərbiyəçi-müəllim öz işini uşaqları təkcə gündəlik həyatda biliklərlə yükləmək və ya əqli fəallığa çalışmaqla bitmiş hesab etməyib, həm də onlarda biliyə həvəs, fikirləşmək, bu və ya digər məsələlərin həlli üçün düzgün yol, üsul axtarıb tapmaq qabiliyyətini inkişaf etdirmək, hər hansı bir işin müsbət nəticəsi üçün sevinc-həyəcan hissi keçirməyi formalaşdırmağı bacarmalıdır.

Uşaq bağçasında uşaqların idraki inkişafı təkcə xüsusi təşkil olunmuş məşğələlərdə deyil,

həm də gün ərzində müxtəlif fəaliyyət növlərində də həyata keçirilir. Uşaqlar rejimin müxtəlif fəaliyyət növlərində bir sıra düzgün biliklər mənimsəyir, ətraf aləm haqqında müəyyən təsəvvürlərə malik olurlar. Bu baxımdan da uşaq bağçasında uşaqların əqli tərbiyəsi ilə əlaqədar olaraq aparılan tərbiyə işləri onlarda təbiət və ictimai həyatın sadə hadisələri haqqında düzgün təsəvvürün yaranmasına, duyğu və qavrayışın təkmilləşməsinə, diqqət, təxəyyül, nitq və təfəkkürün inkişafına yönəldilməlidir.

Ətraf mühit haqqında biliklər uşaqların əxlaq və estetik tərbiyəsində də mühüm rol oynayır. Tərbiyəçi-müəllimin bu sahədə başlıca vəzifəsi uşaqlara bilik vermək, bunun əsasında onların marağını, öyrənmək həvəsini, diqqətli olmasını formalaşdırmaq, onlarda nəcib hisslər oyatmaq və verilən tapşırıq üçün üzərinə düşən funksiyaları yerinə yetirməyə səy göstərməyi yaratmaqdır.

İdrakın inkişafına təsir göstərən əsas vasitə gerçək aləmdir: insanlar, əşyalar, təbiət, ictimai hadisələr və s. hadisələrlə uşaqları günün hər bir vaxtında tanış etmək olar. Bunlar ünsiyyət prosesində, insanların əməyi ilə tanışlıq zamanı, təbiət hadisələrini dərk edərkən, əşyalarla təmasda olarkən və s. proseslərdə uşaqlar tərəfindən daha yaxşı mənimsənilir.

**Məqalənin aktuallığı.** Həqiqətən də məktəbəqədər yaşlı uşaqların idrakının inkişafında ətraf aləmlə tanışlığın özünəməxsus rolu vardır. Tədqiqatın aktuallığı da məhz idraki fəaliyyətə olan tələbat və motivasiyanın formalaşmasının burada mühüm olması ilə şərtlənir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik idrak motivasiyası və onun göstəricilərinin tədqiqata cəlb edilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat zamanı əldə olunmuş nəticələr ətraf aləmlə tanışlıq məşğələlərində tərbiyəçi-müəllimlərin istifadəsi üçün tövsiyə edilir. Eyni zamanda, həmin nəticələrdən dərsliklərin, dərs vəsaitlərinin, elmi-metodik ədəbiyyatın və elmi-tədqiqat işlərinin hazırlanmasında istifadə oluna bilər.

## Ədəbiyyat

1.Bədəlova Ə.S. Təlim-tərbiyə. Bakı: ADPU-nun nəşriyyatı, 2015.
2.http://mektebeqeder.blogspot.com/2013/08/mktbqdr-yasl-usaqlarda-idrakn-inkisaf.html

**Н.Р. Исмаилова**

## Когнитивное понимание детей дошкольного возраста в знакомстве с окружающим миром и его ингредиентов

## Резюме

В статье представлена подробная информация о понятии познания в ознакомлении детей дошкольного возраста с окружающим миром. При этом в анализ включена роль компонентов познавательной концепции, в данной работе сделан акцент на работе воспитателей-педагогов.

**N.R. Ismayilova**

## Cognitive understanding of pre-school-aged children in familiarity with the surrounding world and its role of ingredients

### Summary

The article provides detailed information about the concept of cognition in preschool children's acquaintance with the world around them. At the same time, the role of the components of the cognitive concept is included in the analysis, the work of educators-teachers is emphasized in this work.

**Redaksiyaya daxil olub:** 06.08.2022